bölmə **4**

# Patogenlər və xəstəliklər



Əsrlər boyu insanların sıx yaşadıqları ərazilərdə sürətlə yayılan xəstəliklər milyonlarla insanın və digər canlıların ölümünə səbəb olmuşdur.

Bir çox xəstəliklərin qarşısını almaq üçün bu xəstəliklərin nə olduğunu, əlamətlərini və necə yayıldığını öyrənmək olduqca vacibdir.

Dəridə əmələ gələn adi ləkə, tükün tökülməsi, dişlərin qaralması, bağırsaqların funksiyasının pozulması da xəstəlik əlamətidir. Xəstəliklərdən təcrid olunmuş orqan və toxuma yoxdur. Yəni bütün orqanizm xəstəliyə məruz qalır.

- **Sizcə, biz niyə xəstələnirik?**
- **Bəzi ümumi xəstəliklərə (soyuqdəymə, qrip və s.) səbəb olan nədir?**
- **Orqanizm xəstəliklərlə necə mübarizə aparır?**
- **İnsan özünü və ətrafdakıları bu xəstəliklərdən necə qorumalıdır?**

## Bölmədə öyrənəcəksiniz

- Mikroorqanizmlər bir orqanizmdən digər orqanizmə daxil olaraq xəstəliyə səbəb ola bilər
- Bəzi xəstəliklər viruslar, bakteriyalar və ya göbələklərlə yoluxma nəticəsində əmələ gəlir
- Mikroorqanizmlərin törətdiyi və bir orqanizmdən digərinə keçə bilən xəstəliklər yoluxucu xəstəliklər adlanır
- Gigiyena qaydalarına riayət etməklə və peyvəndlər vasitəsilə yoluxucu xəstəliklərin yayılmasının qarşısı alına bilər
- Bəzi xəstəliklərin müalicəsində antibiotiklərdən də istifadə olunur